***Yeni Azərbaycan Partiyası (YAP) fəaliyyət göstərdiyi 29 il ərzində müstəqil Azərbaycan dövlətinin siyasi, sosial-iqtisadi və mənəvi əsaslarının sivil normalar çərçivəsində formalaşmasına, inkişafına böyük töhfələr verib. Partiya ulu öndər Heydər Əliyevin müdrik siyasi baxışlarından və zəngin dövlətçilik təcrübəsindən bəhrələnərək öz işini mükəmməl siyasi mexanizmlər üzərində quraraq, ölkəmizin taleyüklü problemlərinin həllində fəal mövqe tutub, xalqın maraq və mənafelərinin keşiyində dayanıb, cəmiyyətdə əldə etdiyi nüfuzla ümumxalq partiyası statusunu qazanıb.***

YAP demokratik şəraitdə fəaliyyət göstərən çoxpartiyalı sistemdəki qüvvələr arasında hər zaman siyasi mədəniyyət, siyasi əxlaq nümayiş etdirib, ölkəmizin siyasi sisteminin gələcəyini, perspektivini uğurla müəyyənləşdirməkdə aparıcı rol oynayıb. Eyni zamanda, Azərbaycanın inkişafını, tərəqqisini şərtləndirən kadr bazasının formalaşmasında xüsusi xidmət göstərib, respublikanın ən ağır problemlərinin həllində fəallığı ilə diqqət çəkib. Bütün bunlarla bərabər, azərbaycançılıq məfkurəsinə və milli inkişaf konsepsiyasına sadiqliyi ilə sıralarını sürətlə genişləndirib. Hətta yarandığı ilk vaxtlarda gələcəyə ümidlər tükənəndə belə inamın itməsinin qarşısını alıb, Azərbaycan həyatını tənəzzüldən tərəqqiyə doğru dəyişə bilib. Əlbəttə, bu məsələdə dahi şəxsiyyət Heydər Əliyevin müdrik siyasəti, uzaqgörənliyi əsas rol oynayıb.

Bu cümlələr təsadüfi, gəlişi xoş sözlər deyil. Ötən əsrin 90-cı illərinin sonunda cərəyan edən hadisələri xatırlasaq, fikrimizdə nə qədər haqlı olduğumuz üzə çıxar. O dövrdə respublika ağır, təlatümlü günlərini yaşayırdı. Ölkə vətəndaş qarşıdurması ilə üz-üzə qalmışdı, ağır iqtisadi, siyasi, mənəvi böhran hökm sürürdü. Azərbaycan hakimiyyəti beynəlxalq səviyyədə, demək olar ki, geosiyasi təcrid vəziyyətində idi. Respublika rəhbərliyi getdikcə ağırlaşan bu acınacaqlı vəziyyəti aradan qaldırmaqda aciz idi. Təhlükəli siyasi-iqtisadi, sosial böhran müstəqilliyimizi itirmək, erməni faşizminə hücumların miqyasını genişləndirmək şəraiti yaratmışdı.

investisiya axınının daim güclənməsi nəzərə çarpıb. Müstəqillik dövründə Azərbaycana yatırılan 300 milyard dollara yaxın sərmayə hesabına respublikamız adambaşına düşən investisiya miqyasına görə regional lider kimi tanınıb. Bütün bunların nəticəsində Azərbaycan beynəlxalq aləmdə çox böyük nüfuza sahib olan bir ölkəyə çevirilib.

Cənubi Qafqazın ən böyük siyasi partiyası olan YAP-ın nüfuzu davamlı olaraq artır. Sıralarında 800 minə yaxın vətəndaşı, cəmiyyətin bütün təbəqələrindən olan fəal, intellektual və vətənpərvər insanları birləşdirən bu partiya hazırda həm də Zəfər partiyası kimi tanınır. Çünki ötən il sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatı ölkəmizin tam qələbəsi və düşmənin kapitulyasiyası ilə nəticələndi. Silahlı Qüvvələrimiz 44 günlük Vətən müharibəsində parlaq qələbə qazandı, işğal altındakı torpaqlarımızı yağılardan təmizlədi. Müzəffər ordumuzun hər bir əsgəri, hər bir zabiti savaşda qəhrəmancasına döyüşdü, düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərdi, yaralandı, öz həyatınızı risk altına atdı, lakin məqsədi uğrunda inadından dönmədi, əzmlə, cəsarətlə zəfər yürüşünü son nəticəyə qədər davam etdirdi.

İkinci Qarabağ müharibəsində döyüşlərin şiddətli xarakter almasına, düşmənin müqavimət göstərməsinə baxmayaraq, Azərbaycan Ordusu peşəkarlıq, qəhrəmanlıq

# Siyasi zərurətdən və ictimai tələbdən yaranan partiya

Belə bir vaxtda Azərbaycan xalqı ümidini zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasətçi Heydər Əliyevə bağlamışdı. Buna görə də 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı dahi şəxsiyyətə üz tutaraq Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etdi. Ümummilli lider Heydər Əliyev isə ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Məhz bundan sonra 1992-ci il noyabrın 21-də Naxçıvanda partiyanın təsis konfransının keçirilməsi, ulu öndər Heydər Əliyevin təşkilatın sədri seçilməsi ölkəmizin parlaq gələcəyini müəyyənləşdirən çox mühüm əlamətdar hadisə oldu.

Nəhayət, xalqın təkidi ilə 1993-cü ilin iyununda Naxçıvandan Bakıya gələn Heydər Əliyevin 1993-cü ilin oktyabr ayının 3-də ölkə prezidenti seçilməsi ilə partiyanın həyatında yeni bir mərhələ başladı. Ulu öndərin dövlət başçısı kimi fəaliyyətə başlaması bütün Azərbaycan xalqının gələcəyə ümidlərini artırdı. Çünki hamı yaxşı bilir, dərk edirdi ki, məhz dahi şəxsiyyət ölkəni ağuşuna alan təhlükəli böhrandan, anarxiyadan, özbaşınalıqdan, dövlətçiliyi itirmək təhlükəsindən qurtara bilər.

Sonrakı illərdə baş verən hadisələr, cəmiyyət həyatında nəzərə çarpan müsbət dəyişikliklər Azərbaycan xalqının öz istək və tələbində yanılmadığını, səhv etmədiyini, bir sözlə, ulu öndər Heydər Əliyevi hakimiyyətə təkidlə dəvət etməkdə yanlışlığa yol vermədiyini sübuta yetirdi. Beləliklə, məhz Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan bütün təhlükələrdən xilas oldu, dövlətimizin müstəqilliyi təmin edildi, cəbhədə atəşkəs imzalandı, ölkə tənəzzüldən inkişaf yoluna qədəm qoydu. "Əsrin müqaviləsi"nin imzalanması isə dahi şəxsiyyətin apardığı müdrik siyasətin ən bariz nümunəsi idi. Bu addımla xalqımızın sosial rifahında böyük dəyişikliklər baş verdi.

Ulu öndər Heydər Əliyevin siyasi yolunu layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin ötən 18 ildəki əzmkar fəaliyyəti ilə Azərbaycan onilliklərə bərabər inanılmaz bir inkişaf yolu keçməklə, YAP güclü siyasi qurum kimi özünü təsdiqləyib. Partiyanın lideri olan dövlətimizin başçısı ölkəni inamla, qətiyyətlə və gərgin, məhsuldar fəaliyyəti ilə gücləndirib, dövlətçiliyimizə, müstəqilliyimizə, respublikamızın sosial-iqtisadi tərəqqisinə şərəflə xidmət edib. Prezident İlham Əliyevin "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" devizi ilə Azərbaycan dayanıqlı inkişafa nail olub, qarşıya qoyulmuş hədəfə - dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmək məqsədinə doğru inamlı addımlar atıb. Dövlətimizin başçısı bununla da cəmiyyətimizdə sözübütöv-sözü və əməli vəhdət təşkil edən, sağlam ideyalı şəxsiyyət kimi tanınıb. Fəaliyyətində peşəkarlıq, prinsipiallıq, işgüzarlıq, ardıcıllıq, sadiqlik və düzlük kimi prinsipləri önə çəkən Prezident İlham Əliyev bu keyfiyyətləri ilə, eyni zamanda, beynəlxalq aləmdə böyük nüfuz qazanıb.

Cənab İlham Əliyevin rəhbərliyi ilə son 18 il ərzində Azərbaycanın sosial-iqtisadi sahələrində inkişafı şərtləndirən genişmiqyaslı islahatlar ardıcıllıqla həyata keçirilib, dayanıqlı iqtisadi inkişafa nail olunub, dünyada iqtisadi sahədə ən qabaqcıl yerlərdə qərarlaşıb. İstər xarici borc, istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından ölkəmiz önəmli uğurlara imza atıb. Azərbaycanda yaşanan sabitlik, sağlam siyasi-iqtisadi iqlim hesabına respublikamıza

nümayiş etdirdi. Cənab Prezidentin vurğuladığı kimi, bu peşəkarlıq, qəhrəmanlıq nümunəsi sayəsində, cəsarət, hünər, əzm hesabına 44 gün ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu. Düşmənin texnikası tam məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Ermənistan ordusu darmadağın edildi, atəşkəs ərəfəsində isə artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirən, başıpozuq dəstələrə çevrildi.

Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi işğalçıdan təmizləməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi. İnzibati ərazisi xeyli böyük olan Kəlbəcər, Ağdam və Laçının isə şəhid vermədən, qan tökülmədən geri qaytarılması reallaşdı.

Beləliklə, ötən il sentyabrın 27-dən başlanan müharibə sonda Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Danışıqlar prosesinin müxtəlif mərhələlərində müzakirə olunan razılaşma müddəalarının ölkəmiz üçün ən sərfəli variantı belə hazırda Azərbaycanın əldə etdiyi üstünlüklə müqayisəyə gəlməz. Başqa sözlə, 30 il ərzində aparılan danışıqlar prosesində düşmən dövlət reallaşdırmaq istədiklərinin heç birini həyata keçirə bilmədi, Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi gerçəkləşmədi, bu bölgədə yeni erməni dövlətinin yaradılması planları isə tamamilə pozuldu.

Beləliklə, Ermənistanın və onun havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi.

Vətən müharibəsindəki parlaq qələbəmiz, eyni zamanda, Prezident, Ali Baş Komandan və partiya lideri kimi İlham Əliyevin xarakterindəki söz və əməl birliyi kimi yüksək mənəvi keyfiyyəti üzə çıxardı. Belə ki, dövlətimizin başçısı ötən illər ərzində nəyə söz veribsə, hansı proqramı imzalayıbsa, onların hamısının həyata keçirilməsini, gerçəkləşməsini təmin edib. Prezidentin işğal altındakı torpaqlarımızı azad etdilməsi ilə bağlı vədini yerinə yetirməsi bunun ən bariz ifadəsidir. Bax, dövlətimizin başçısı bu cür keyfiyyətlərinə görə dünya ölkələri rəhbərləri sırasında fərqlənən ən dəyərli və güclü şəxsiyyətlərdən biri kimi tanınıb.

***Cəlil BAXŞIYEV,***
***YAP Lerik rayon təşkilatının sədr əvəzi***